AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
22.08 2024-cü il tarixli
2-29/3-2-540F/2024 nömrəli əmrinə
7 nömrəli əlavə

VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ
TƏSLİLƏ DÜZDÜR

Kiber təhlükəsizlik

TƏHSİL PROQRAMI (KURİKULUM)

BAKI – 2024

1. Ümumi müddəalar

1.1. Subbakalavr peşə-ixtisas dərəcəsi verən “Kiber təhlükəsizlik” ixtisasının təhsil proqramı “Təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “və Təhsil Nazirliyinin müvafiq qərarları ilə təsdiq edilmiş subbakalavr peşə hazırlığını həyata keçirən tədris proqramlarının hazırlanmasını tənzimləyən müvafiq hüquqi sənəd və qaydalara uyğun hazırlanmışdır.

1.2. Yüksək texniki peşə təhsili proqramları (kurikulumlar) təlim nəticələri və məzmun standartlarını, tədris fənn/modullarını, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən sənəddir.

1.3 Təhsil Proqramı (kurikulum) tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün peşə təhsili müəssisələri üçün məcburidir.

1.4 Strukturda istifadə olunan işarələr:
İTP – ixtisas üzrə Təhsil Proqramı
ÜK – ümummədəni kompetensiyalar
PK – peşə kompetensiyaları

1.5 **Kiber təhlükəsizlik** ixtisası üzrə təhsil proqramlarının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

İxtisasın şifri və adı:	030219 Kiber təhlükəsizlik
İxtisas qrupu / İqtisadi sektorlar:	İnformasiya-kommunikasiya texnologiyası və hesablama texnikasının təmiri və servis xidməti
İxtisas dərəcəsi:	“Kiber təhlükəsizlik” ixtisası üzrə subbakalavr
Peşə təhsili səviyyəsi	Yüksək texniki peşə təhsili
Kreditlərin sayı:	180
AzMKÇ səviyyəsi:	5
İSCED kodu:	0612 Information technology security
İstinad edilən kvalifikasiya standartları və kodları:	
Təhsil forması və müddəti:	Əyani, Tam orta təhsil bazasından 3 il; Ümumi orta təhsil bazasından 4 il.
Məşğulluq imkanları:	müxtəlif yerli və beynəlxalq təşkilat və şirkətlər, dövlət qurumlarıda informasiya təhlükəsizliyi sahəsində

030219 Kiber təhlükəsizlik ixtisası Azərbaycan Respublikasının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) 5-ci səviyyəsinə uyğundur.

1.6 Təhsil proqramı üzrə bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan-kənar yükünün ümumi həcmi 45 saatdır.

Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir. Buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Tələbə üçün hər semestrdə 30 kreditə qədər modul və fənlərin tədrisi müəyyənləşdirilir. Müvəffəqiyyətlə təhsil alan tələbələrə əlavə ödəniş etmədən təhsil aldığı ixtisas üzrə əlavə modul (modullar) seçməyə icazə verilir və bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

1.7 Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin modul/fənn üzrə akademik borcu qalır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə modul (fənni) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki modul üzrə (hər moduldan bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər.

2. Kiber təhlükəsizlik ixtisası üzrə məzunların ixtisas xarakteristikası və kompetensiyası

2.1 Subbakalavrın ixtisas xarakteristikası.

Kiber təhlükəsizlik mütəxəssisi informasiya texnologiyaları təhlükəsizliyi və ya elektron məlumat təhlükəsizliyi kimi də tanınan, kompüter təhlükəsizliyi, kompüterlərin, serverlərin, mobil qurğuların, elektron sistemlərin, şəbəkələrin və məlumatların rəqəmsal hücumlardan qorunmasını təmin edən və istifadə zamanı ortaya çıxa biləcək riskləri idarə edən şəxsdir.

2.1.1 Peşə fəaliyyətinin əsas istiqamətləri (vəzifə və funksiyalar):

- Dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəszilik və digər sistemlərin təkmilləşdirilməsi;
- Kibermüdafiə tədbirlərinin genişləndirilməsi;
- Təhlükəsizlik boşluqları və zəifliklərı nəzərə almaq, məlumat və hesabat vermək;
- İnformasiya texnologiyaları təhlükəsizliyi və ya elektron məlumat təhlükəsizliyi kimi də tanınan, kompüter təhlükəsizliyi, kompüterlərin, serverlərin, mobil qurğuların, elektron sistemlərin, şəbəkələrin və məlumatların rəqəmsal hücumlardan qorunması;
- Fərqli hücum növlərinə görə tədbirlər görmək;
- Müxtəlif yerli və beynəlxalq təşkilatlarda, dövlət orqanlarının informasiya ehtiyatlarının qorunması;
- Təhdidlərin qarşısının alınması, təhlili və qabaqlanması;
- Kibertəhlükəsizlik sahəsində risklərin qiymətləndirilməsi və idarə olunması.

2.1.2 Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:

İxtisas üzrə:

- İnformasiya texnologiyaları təhlükəsizliyi sahəsində biliklər
- Əməliyyat sistemləri və şəbəkələr sahəsi üzrə biliklər
- C və Python proqramlaşdırma dilləri üzrə biliklər
- Kiberhücumlar və müdafiə metodları üzrə biliklər
- Zəifliklərin aşkarlanması, qiymətləndirilməsi
- Mobil avadanlıqların təhlükəsizliyi

Yumşaq bacarıqlar (soft skills):

- Zamanın idarə olunması
- Problem həll etmə
- Yaradıcılıq

2.1.3. “Kiber təhlükəsizlik” ixtisasının hazırlanmasında bu istiqamət üzrə WSC2019_WSSS54 standartının tələbləri nəzərə alınmışdır. Müvafiq standartın aşağıdakı standartlar proqram ilə əhatə edilmiş və müvafiq sərişlərin formalaşmasında əsas götürülmüşdür.

Bilik	Bacarıq
İşin təşkili və idarə edilməsi	
• Səmərəli komanda işinin qurulması və tətbiqi • Kompüter sisteminin prinsipləri, xüsusiyyətləri	• Işi ilə bağlı rast gəlinən problemlərin optimal həll axtarışı • Vaxt məhdudluğu və işin təhvili üzrə təyin edilmiş vaxta əməl edilməsi

• Problemlər üzrə müxtəlif həllərin təklif edilməsi mövcud alətlərdən istifadə etməklə problemlərin həllini tapmaq	
Kommunikasiya və şəxslər arası ünsiyyət bacarığı	
• İş icrasında problemlərin düzgün kommunikasiyası • Tapşırıqların icrası üzrə iş axını cədvəllərinin hazırlanması • Proqram təminatı dizayn konsepsiyasının düzgün təsviri • Kiber təhlükəsizlik üzrə yoxlamalar və tədbirlərin və nəticələrin düzgün sənədləşdirilməsi	• Kiber təhlükəsizlik üzrə yoxlamalar və tədbirlər üzrə sənədləşmənin düzgün tətbiqi • Standart və tələbləri başa düşür və tətbiq üçün düzgün şərh edir • Müştəri irad və qeydlərini anlayır və müvafiq həllər formalaşdırır • Biznes ehtiyaclara uyğun müvafiq konsepsiya düşünür • İnformasiya sistemlərinin təhlükəsizliyinin təmini üçün siyasət və prosedurların öyrənilməsi və tətbiqi
Təhlükəsiz İT sistem dizaynı və yaradılması	
• İT risk idarə etmə standartları, qayda və prosedurları • Kiber müdafiə və zəiflik yoxlama alətləri və onların imkanları • Əməliyyat və şəbəkə sistemləri və tənzimləmələri • Proqramlaşıdrma konseptləri, proqramlaşdırma dilləri, testlər, fayl tipləri • Proqram təminatı hazırlanmasında kiber təhlükəsizlik prinsipləri və metodları	• Kiber təhlükəsizlik prinsiplərinin təşkilatın xüsussiyyəti və tələbinə uyğun tətbiqi • Xüsusi tələblərə uyğun olaraq sistemin yoxlanması üzrə həllər hazırlayır və tətbiq edir • Mövcud proqram təminatı və sistem üzrə modifikasiyaları icra edir • Mövcud və ya yeni proqram təminatı və sistemin təhlükəsizlik təhlilini aparır və nəticələri təqdim edir •
Sistem əməliyyatları və texniki qulluğun təhlükəsizliyi	
• Məlumat bazası və SQL dili • Şəbəkə protokolları (TCP/IP, DNS və s.) • Şəbəkə təhlükəsizliyi arxitekturası, tipologiya, protokollar, komponenetlər • Sistem inzibatçılığı, şəbəkə və əməliyyat sistemi təhlükəsizliyinin möhkəmləndirmə texnikaları • Avtorizasiya, müəyyənləşdirmə və istifadə hüququ vermək metodları • Kiber müdafiə prinsipləri	• Şəbəkə infrastrukturu qurulması, konfiqurasiyası, test edilməsi və idarə edilməsi • Məlumat mübadilə proqramlarının idarə edilməsi • əsas server konfiqurasiyası quraşdırılması • Hesabların idarə edilməsi, parol yaratma və idarə etmə • Risk, uyğunsuzluqların ölçülməsi və monitorinqi metodları • İT proqramların auditi
Sistem təhlükəsizliyi və müdafiəsinin təmini	
• Fayl sistem tətbiqləri • Sistem fatlların əhatə etdiyi məlumatlar • Şəbəkə təhlükəsizliyi arxitekturası konsepti, topologiya, protokollar, komponentlər	• Təhlükəsizlik tədbirləri üçün məlumat toplanması və hesabat və məlumatların təhlili • Şəbəkə resurslarının effektiv fəaliyyəti üçün hardvare və proqram təminatı infrasktrukturunun test

• Təhlükəsizlik yoxlamalarının aparılması, altələr, hüquqi tənzimləmə və tətbiq metodologiyası • Kiber müdafiə alətləri və imkanları • Təhlükəsizlik risklərinə qarşı kontra tədbirlərin dizaynı və təşkili	edilməsi, tətbiqi və texniki qulluq işləri • Şəbəkədə təsdiqlənməmiş fəaliyyətlərin monitorinqi • Krizis vəziyyətlər ilə bağlı təcili tədbirlərin icrası • Müdaxilə və boşluqların qiymətləndirilməsi
Əməliyyatlar və İdarə etmə	
• Kiber müdaxilə aktyorları, metodlar və texnikaları • Şəbəkə təhlükəsizliyinin əsasları • Sistem faylllarını iş mexanizmi, funskiyası • İstifadə edilən alətlər (sniffers, keyloggers) və texnikaların (backdoor Access və s.) strukturu, yanaşma və strategiyaları • Daxili (internal) taktikalar • Daxili və kənar partnyorların kiber əməliyyatlar imkan və alətləri	• Kiber cinayətlərin müəyyənləşdirilməsi • Müdaxilələr və boşluqların təyini üçün məlumatların təhlili
Intelektual məlumat toplanması və təhlil	
• Kiber cinayətkarlar və xarici müdaxilələrin təyini • Müxtəlif mənbələrdən olan məlumat və hesabatların əldə etmək və təhlili • Məlumat və sistem bərpası metod və mexanizmləri	• Kiber cinayətkarlar və xarici müdaxilələrin müəyyənləşdirilməsi • Məlumat və sistem bərpası üzrə fəaliyyətlər
Təhlükəsizlik yoxlamaları və rəqəmsal cinayətkarlıq	
• Yoxlama və hesabat alətləri və hüquq tənzimləmər • Malvare təhlili konsepti və metodologiyası • Kiber müdaxilə sənəf tipləri və onların toplanması • Rəqəmsal kiriminal fəaliyyətlər və məlumatlar tətbiqi və onlara qarşı mübarizə praktikası	• S • Collect, process, preserve, analyse, and present computer-related evidence in support of network vulnerability mitigation and/or criminal, fraud, counterintelligence, or law enforcement investigations

2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.

2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektivdə işləmək **(ÜK-1);**
- öz sahəsi və digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- etik normalara malik olmaq **(ÜK-3);**
- sağlam həyat tərzini gözləmək **(ÜK-4);**
- tənqid və özünətənqidə dözümlülük göstərmək **(ÜK-5);**
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək **(ÜK-6);**

- dövlət dilində sərbəst danışmaq **(ÜK-7);**
- xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmaq **(ÜK-8);**
- İKT-dən istifadə etməyi bacarmaq **(ÜK-9);**
- Karyera planlaması və karyera yüksəlişi üçün öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq **(ÜK-10);**
- fikrini düzgün və yığcam ifadə etmək **(ÜK-11);**
- Peşə fəaliyyəti və gündəlik həyatda əmək təhlükəsizliyi və sağlamlıq qaydalarına riayət etmək və digər şəxslərə məlumatlandırmaq **("ÜK-12).**
- Xidmət göstərdiyi fəaliyyəıt sahəsi üzrə daim yenilikləri araşdırmaq **(ÜK-13)**

2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələrinin, təşkilatların, idarələrin, müəssisələrin, şirkətlərin və s. əsas problemlərini sistemləşdirməyi bacarmaq, onların kompleks təhlilini aparmaq və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmaq və aradan qaldırmaq **(PK-1);**
- mövcud tələbləri müvəffəqiyyətlə müəyyənləşdirə bilmək və uyğun bir həll metodu seçmək və tətbiq etmək **(PK-2);**
- peşə fəaliyyətində İKT-dən istifadə etmək **(PK-3);**
- müəyyən vəzifələr qoymağı, onları həll etmək üçün uyğun metodları seçməyi və tətbiq etməyi bacarmaq **(PK-4);**
- İxtisasla əlaqəli əsas anlayış və terminlərin mənasını bilmək və praktikada tətbiq etmək **(PK-5).**
- ixtisasla bağlı müxtəlif layihələrin planlaşdırılması və icrasında iştirak etmək **(PK-6);**
- ixtisasla bağlı aşağıdakı bilik, bacarıq və səritşərlərə yiyələnmək **(PK-7)**.
    - C və Python proqramlaşdırma dilləri funksiyaları bilmək və əməliyyatları icra etmək;
    - Dark Web, Anonimlik və İOT-ların mühafizəsinin təşkil etmək;
    - IT Sistemlərind (Windows Server) təhlükəsizliyin idarəolunması
    - Kiberhücumlar və müdafiə üsullarının tətbiq etmək;
    - Zəifliklərin aşkarlanması, qiymətləndirilməsi üzrə fəaliyyətlər;
    - Mobil avadanlıqların təhlükəsizliyinin təmn etmək.

3.“Kiber təhlükəsizlik" ixtisası üzrə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

Humanitar və baza modulları bölümünə daxil olan modullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.03.2019-cu il tarixli, 85 №-li qərarı ilə təsdiq olunmuş «Peşə təhsilinin dövlət standartları»nda əks olunan “ömürboyu təhsil” prinsipinə uyğun müəyyənləşdirilmişdir.

Humanitar və baza modulları bölümü üzrə təhsilalan “ömürboyu təhsil” prinsipinə uyğun olaraq aşağıdakı bilik və bacarıqlar əldə edəcəkdir:

- ixtisas üzrə peşə fəaliyyətini təmin edən ana dilində və xarici dildə yazılı və şifahi ünsiyyət qurmaq üçün nəzəri və təcrübi biliklərə malik olmalı;
- ixtisas üzrə qazanılmış biliklərdən istifadə etməli;
- informasiyanın toplanması və emalında müasir üsullardan istifadə etməli, müxtəlif hesablamaları aparmalı;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilməli;
- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsində və saxlanılma-sında kompyuter texnologiyasından istifadə etməli;
- peşə fəaliyyətində sahibkarlıq düşüncəsini və ideyalarını əsas götürməli;
- peşə fəaliyyətində peşənin tələb etdiyi işgüzar etika və davranış qaydalarına əməl etməli;
- peşə fəaliyyətində “ömür boyu” öyrənmə prinsiplərini rəhbər tutaraq şəxsi inkişafa və düzgün karyera planlamasını əsas götürməlidir.

İxtisas üzrə baza biliklərin formalaşmasını imkan verəcək aşağıdakı modulların tədrisi də bu bölümdə icra edilir (məs. Layihə İdarə edilməsi, İstehsalatın İdarəedilməsi və s.). Bu təhsilalana texniki biliklərin formalaşması, həmçinin gələcək iş prosesində müəyyən idarəçilik funksiyalarının icrası üçün tələb olunan səriştələrin əldə edilməsinə istiqamətlənir.

3.1 İxtisas üzrə modul və fənn bölümləri, modul və fənn mənimsənilməsi (təlim) nəticələri (bilik, bacarıq və yanaşma baxımından) və kreditləri, qazanılması nəzərdə tutulan kompetensiyaların kodları:

3.1.1 Ümumtəhsil fənlər bölümü:

Ümumtəhsil fənləri bölməsinə daxil olan fənlər 29 mart 2019-cu il 1532-VQ nömrəli "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının Qanunun və "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarının tələblərinə uyğun müəyyənləşdirilmişdir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda tədrisin birinci ilində ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

Fənn bölümünün kodu	**Fənlərin adı**	**Saat miqdarı (həftəlik)**
ÜF-B01	Azərbaycan dili	3
ÜF-B02	Xarici dil	4
ÜF-B03	Riyaziyyat	4
ÜF-B04	Fizika	1
ÜF-B05	Kimya	1
ÜF-B06	Ədəbiyyat	1
ÜF-B07	Azərbaycan tarixi	2
ÜF-B08	Coğrafiya	1
ÜF-B09	Ümumi Tarix	1
ÜF-B10	Biologiya	1
ÜF-B11	İnformatika	3
ÜF-B12	Fiziki tərbiyə	2
ÜF-B13	Çağırışaqədərki hazırlıq	2
ÜF-B14	İkinci xarici dil*	2
İT - B01	Praktiki laboratoriya dərsləri / istehsalat təlimi	7
Cəmi:		**35**
Qeydlər:		
Ümumtəhsil fənləri tədris olunduğu halda, həmin fənlərə kreditlər ayrılmır. Tədris müddəti 38 həftə (18/20) davam edir.		

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş "Ana dilində ünsiyyət" səriştəsi "Azərbaycan dili", "Xarici dildə ünsiyyət" səriştəsi "Xarici dil", "İnformasiya texnologiyaları" səriştəsi "İnformatika", "Hesablama əməliyyatlarını yerinə yetirmə" səriştəsi isə "Riyaziyyat" fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.

“Xarici dil” və “İnformatika” fənnin tədrisi tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda 2 (iki) qrupa bölünərək aparılır.

Praktiki laboratoriya dərsləri və ya istehsalat təlimi tədrisi təhsil müəssisəsi tərəfindən laboratoriya və emalatxana şəratinə əsasən tədris edilir.

İxtisasın tələbinə uyğun olaraq ikinci xarici dilin tədrisi aparılmadıqdan onun saatları əsas xarici dilə verilir.

3.1.2 Kadr hazırlığı üçün tələb olunan modul və fənn bölümü:

Modul / Fənn	Təlim nəticəsi	Mənimsənilmə nəticələri			Modullar üzrə kredit-lərin sayı	Kompetensiyaların kodları
		Bilik	Bacarıq	Yanaşma		
Təhsil hissəsi						
HBM – B00	**Humantira və baza modullar bölümü** Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr:					
HBM–B01 Azərbaycan tarixi		- Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə təsəvvürə, müstəqillik yolunda qazandığı nailiyyətlər, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı;	Tarixi inkişaf mərhələlərini müqayisə və təhlil etməyi, tarixin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi.		**5**	**ÜK-1** **ÜK-2** **ÜK-5**
HBM–B02 Azərbaycan dilində işgüzar və akademik kommunikasiya		- Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli, nitqin düzgünlüyü, aydınlığı və dəqiqliyi naminə sözləri düzgün tələffüz etməyi;	Azərbaycan dilinin leksikonundan peşə fəaliy-yətində istifadə etməyi, dil qaydalarına uyğun danışmağı və yazmağı, rəsmi və işgüzar üslubda yazmağı və danişmağı;		**4**	**ÜK-7** **ÜK-3** **ÜK-4** **ÜK-11**
HBM-B03 / B04 / B05 İnformasiya texnologiyaları		- İnformasiya texnologiyalarından istifadə etməklə ixtisas aid məlumat, əldə etmək və tətbiqi imkanlarını;	- İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi və rəqəmsal məzmun yaratmağı, müvafiq sosial media vasitələrindən istifadə etməyi;	İKT, sosial media və digər proqram təminatlarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə.	**6**	**ÜK-9** **PK-2** **ÜK-13**

HBM-B06 / B07 / B08 / B09 Xarici dildə işgüzar və akademik kommunikasiya		- Xarici dildə olan ixtisasa aid ədəbiyyatı oxuyub başa düşməyi;	- Xarici dildə olan ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə etməyi, tərcümeyi-hal və digər rəsmi sənədləri xarici dildə tərtib etməyi, xarici dildə yazılı və şifahi ünsiyyət qurmağı;	Xarici dildə olan material-lardan peşə fəaliyyətində istifa-də etmək vərdişlərinə.	**12**	**ÜK-1 ÜK-8 ÜK-13**
HBM-B10 / B11 Texniki hesab		- Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, və peşə fəaliyyəti ilə bağlı riyazi düşüncəni tətbiq etməyi;	- İxtisas uyğun müvafiq hesablamalar aparmağı, qrafik və cədvəlləri hazırlamaq və istifadə etməyi, təsviri statistikadan istifadə etməyi;	Riyazi yanaşma və metodlardan peşə fəaliyyətində istifadə etmək vərdişlərinə.	**5**	**ÜK-2 PK-3**
HBM-B12 Şəxsi inkişaf və karyera planlaması		- Fərdi özünü inkişaf və karyera planlaması üzrə yanaşma və tətbiqləri başa düşməyi;	- Karyera məqsədlərini müəyyən etməyi, karyera inkişafında müasir işaxtarma və müraciət üsullarından istifadə etməyi;	Fərdi və karyera inkişafı üçün müasir planlama və tətbiq mexanizmlərindən istifadə etmək vərdişlərinə.	**3**	**ÜK-6 ÜK-10**
HBM-B13 Layihə İdarə edilməsi		- Layihələrin hazırlanması, idarə edilməsi və monitorinqi mərhələlərini izah etməyi və fəaliyyətlərin düzgün planlaması tətbiq etməyi;	- Müxtəlif ölçülü layihələrin idarə edilməsi üçün layihə planlaması və idarə edilməsi üzrə alət və üsullardan istifafə etməyi;	Layihə planlanması və idarə edilməsi üzrə müasir yanaşma və vərdişlərə	**3**	**PK-6**
HBMS–B00	**Seçmə modullar***					
HBMS-B01 Etika və estetika (İşgüzar Etika)		- Peşəkarlıq prinsipləri və iş yerində davranış qaydalarını;	- Peşəkarlıq prinsipləri və komanda ilə səmərəli işləməni, vaxtdan səmərəli istifadə etməyi, iş yerində davranış qaydalarına əməl etməyi;	Peşəkarlıq və səmərli iş prinsiplərini, iş yerində düzgün davranış qaydalarından	**3**	**ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5**

				peşə fəaliyyətində istifadə etmək vərdişlərinə.		
HBMS-B02 Estetika və Mədəni İfadə		- Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını başa düşməyi;	- Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə etməyi;	Peşə fəaliyyətində etiket bə nəzakət qaydalarından istifadə etmək vərdişlərinə.	**3**	**ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5**
HBMS-B03 STEM		- STEAM Mühəndislik və Dizaynın əsasları; - 3D qələm, 3D CAD Modelləşdirməyə girişi; - Mikrobit ilə Robototexnika - proqramlaşdırmaya girişi; - CNC lazer texnologiyasına girişi; - Dron texnologiyasının əsaslarını.	- 3D qələm və 3D CAD modelləşdirmə ilə müxtəlif obyektlərin dizaynını; - Mikrobit ilə robototexnika proqramlaşdırma əsasında müxtəlif layihələrin proqramlaşdırılması; - CNC lazer texnologiyası əsasında müxtəlif obyekt düzəldilməsini; - Dron texnologiyası üzrə müəyyən fəaliyyətləri.	STEAM Mühəndisliyi, CNC lazer və Dron texnologiyası üzrə müxtəlif praktiki vərdişlərə.	**3**	**ÜK-9 ÜK-13 PK-2**
HBMS-B04 Sahibkarlığın əsasları və biznesə giriş		- Sahibkarlıq düşüncəsi və yanaşmalarını və onların peşə fəaliyyətində tətbiqi imkanlarını başa düşməyi;	- Peşə fəaliyyəti üzrə tətbiq edilə bilən sahibkarlıq ideyalarını müəyyən etməyi, biznes planlar hazırlamağı və biznes planları təhlil edərək onları tətbiq etməyi;	Peşə fəaliyyətində sahibkarlıq düşüncəsi və sahibkarlıq istiqamətində planlar hazırlama və tətbiq etmək vərdişlərinə.	**3**	**PK-1 PK-6**
HBMS-B05		- İxtisasına aid istehsalat sahələrinin əsas idarəetmə prinsip və mexanizmlərini başa düşməyi;	- Peşə fəaliyyətindən asılı olaraq istehsalatın planlanması və idarə edilməsi ilə bağlı	İxtisasa aid istehsalatın idarə edilməsinin	**3**	**PK-1 PK-6**

İstehsalatın idarə edilməsi			prinsipləri düzgün formada tətbiq etməyi;	əsas prinsiplərinin peşə fəaliyyətində istifadə etmək vərdişlərinə.		
KS-İM-B00	**İxtisas peşə hazırlığı modulları bölümü** Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr:					
KS-İM-B01 Komputer proqramlaşdırması və Əməliyyat sistemləri	Müvafiq aparat, proqram təminatı və müxtəlif əməliyyat sistemlərini bilir. Müvafiq simmetrik çox işləmə və paylaşılan yaddaş bölmələri ilə işləməyi bacarır. Müvafiq şəbəkəyə və virtualizasiyaya əsaslanan proseslərarası ünsiyyət modeli ilə bağlı bilikləri tətbiq etməyi bacarır.	- Sistem zəngləri, əməliyyat sistemi və proseslər arası ünsiyyət həyata keçirilməsi üçün tətbiq edilən müxtəlif arxitekturaları izah etmək; - Əməliyyat sistemləri və İnformasiya Təhlükəsizliyində parametrlərə uyğun olaraq komandaların,məlumatların analizi və onların sistemdə verilməsi qaydalarını bilmək və müəyyən etmək; - Proseslərarası ünsiyyətin bir və ya daha çox prosesdə və ya proqramda birdən çox mövzu arasında məlumat mübadiləsi üçün istifadə olunması prinsiplərini anlamaq.	- Memarlıq ya yerli virtualizasiyadan istifadə etməklə virtuallaşdırma dizayn yollarını təmin etmək; - Komputer göstəriciləri və əməliyyat sistemlərinin optimal komponentlərdən istifadə etməklə davamlılıq, innovativlik və təhlükəsizlik meyarlarının qiymətləndirilməyini təyin etmək; - Vaxt bölgülü əməliyyat sistemlərinin səmərəli istifadəsi üzrə tapşırıqları emal etmək.	Kibertəhlükəsizliyin təşkil olunmasında müxtəlif proqramlardan istifadə edilməsi və fərqli əməliyyat sistemləri mühitində işləməyi bacarmağı təmin etmək yönündə startegiya və metodolgiyaların hazırlanması	**4**	**PK – 1** **PK – 5** **PK – 7**
KS-İM-B08 Python programlaşdırma dili	Python üçün mühit yaratmağı və dilin sadə sintaksisini təyin etməyi bacarır. Hadisələrin axın kontrolunu təşkil etməyi, Obyekt Yönümlü Python proqramı(OOP) təşkil etməyi bacarır.	- Funksiyalar: tərif və istifadə, arqumentlər, blok quruluşu, əhatə dairəsi, rekursiya anlayışlarını başa düşmək və sadə funksiya yarada bilmək; - Python-da olan müxtəlif növ əməliyyatların(Arithmetic, Logical, Comparison və s.) sintaksisini sadə nümunələr vasitəsilə anlamaq;	- Python proqramlaşdırma mühitinin müxtəlif əməliyyat sistemlərində qurulmasını həyata keçirmək və GitHub və git-ə giriş etmək; - Dictionary Metodlardan, Tuplelardan istifadə etməklə əməliyyatlar aparmaq; - Python-da olan müxtəlif funksiyaların və metodların	Python programlaşdırma dili üzrə əldə olunmuş bilik və bacarıqların kibertəhlükəsizlik üzrə məsələlərdə və müxtəlif mühitlərdə	**5**	**PK – 1** **PK – 5** **PK – 7**

	Python-da siniflərin, faylların və setlərin implementasiyasını etməyi bacarır	- İrsiliyi, Polimorfizmi, Abstraktlığı, İnkapsulyasiyanının işləmə prinsipini nümunələr əsasında təyin etmək.	tətbiqini nümunələr üzərində reallaşdırmaq; - Əsas fayl əməliyyatları biliklərini nümayiş etdirərək Python-da ZİP fayl nümunəsi yaratmaq.	tətbiqini təmin edən strategiya və metodologiyaların hazırlanması		
KS-İM-B05 IT Sisteminin və təhlükəsizliyin idarəolunması	Müəyyən müəssisədə sistem idarəçiliyinin informasiya texnologiyaları sistemlərinin yaradılması və nəzarəti mexanizmini bilir. Müəssisədə Windows Server mühitindən, Virtualizasiyadan istifadə etməyi bacarır. Windows mühitində istifadəçilər və səlahiyyət vermə prinsiplərinin qurulmasını bilir. İnformasiya təhlükəsizliyi sistemini anlayır, risklər və zəifliklər yarandıqda müvafiq və təxirəsalınmaz tədbirlər görməyi bacarır. Seçilmiş risk azaldılması metodu əsasında informasiya texnologiyaları (IT) sahələrinin təhlükə və/və ya zəifliyindən asılılığını	- Windows Server və onun komponentlərinin işləmə prinsipini bilmək və nümunələr əsasında təyin etmək; - İstifadəçilərin müəssisə mühitində necə yaradıldığı, qruplaşdırıldığı və idarə edildiyini başa düşmək.(AD); - İnformasiya təhlükəsizliyinin idarə edilməsi (ISM) təşkilatın təhlükələrdən, aktivlərin məxfiliyinin, əlçatanlığının və bütövlüyünün qorunmasını təmin etmək üçün tətbiq edilməli olan nəzarət vasitələrini bilmək	- Resurslardan istifadə etməklə şəxsi test mühitinin qurulması prosesini həyata keçirmək; - Şəxsi və müəssisə hesablanması prinsiplərini anlamaq üçün real nümunələr üzərində işləmək; - Addressing və subnetting biliklərini real nümunələr əsasında nümayiş etdirmək; - VMware üzərindən virtualizasiyaya ümumi baxışla əməliyyatlar aparmaq; - İstifadəçilər və Doğrulama (Authentication) anlayışlarının virtual mühitdə nümunələr əsasında qurulmasını yerinə yetirmək. - İnformasiya təhlükəsizliyinin idarə edilməsi (ISM) təşkilatın təhlükələrdən, aktivlərin məxfiliyinin, əlçatanlığının və bütövlüyünün qorunmasını təmin etmək üçün tətbiq edilməli olan nəzarət vasitələrini müəyyənləşdirmək və idarə etmək.; - İSM-in nüvəsi informasiya risklərinin idarə edilməsi, risklərin qiymətləndirilməsi və onlar barədə məlumatların	-İT sistemlərinin yaradılması, idarə olunması və nəzarətinin həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş metodologiya və strategiyaların yaradılması -İT sistemlərinin təhlükəsizliyinin idarə olunmasını öyrənmək və İT sistemlərində mühitə uyğun təhlükəsizlik tədbirlərini icra etmək yönündə metodologiya və strategiyaların hazırlanması.	**6**	**ÜK - 12** **PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**

	peşəkarcasına anlayır və təmin etməyi bacarır.		müvafiq maraqlı tərəflər arasında yayılmasını özündə ehtiva edən bir prosesi apara bilmək;			
KS-İM-B06 Şəbəkənin və şəbəkə təhlükəsizliyinin İdarəolunması əməliyyatları	Standart arxitekturaya əsaslanan şəbəkə idarəedilmə konseptini bilir. Paylanmış sistemdə ümumi istifadə olunan şəbəkə protokolları və onların arxitekturasını fərqləndirməyi bacarır. Şəbəkə idarə etməsində əsas və trend texnologiyalardan istifadə etməklə monitroing etməyi bacarır. Şəbəkə avadanlıqlarının təhlüksəzlik arxitekturasının ümumi təşkilini təmin edə bilir. Şəbəkə səviyyələri üzrə müvafiq avadanlıqların təhlükəsizlik inteqrasiyasının təmin etməyi bacarır. Şəbəkə üzrə məlumatların müxtəlif vəziyyətlərində təhlükəsizliyini avtomatik və manual idarəsini bacarır.	- Analitik texnikalardan istifadə etməklə şəbəkə daxili ünsiyyət üçün dizayn konseptlərini anlamaq; - OSİ və TCP/İP modellərinin qatlarında olan İnternet Protokollarının müxtəlifliyini analiz etmək. -Şəbəkə arxitekturasını təhlükəsizlik baxımından təşkilini anlamaq;	- Resurslardan istifadə etməklə şəxsi test mühitinin qurulması prosesini həyata keçirmək; - Müxtəlif şəbəkə topologiyaları və onların ötürülməsi xüsusiyyətlərini real nümunələr üzərində işləmək; - Syslog və SNMP-dən istifadə etməklə fault və performans idarə edilməsini həyata keçirmək; - Müştəri-server, peer-to-peer və şəbəkə zəifliklərini nümunələr əsasında nümayiş etdirmək; - Ümumi istifadə olunan monitoring şəbəkə vasitələri ilə bağlı olan logları analiz etmək. - Kiber müdafiənin təminatı üçün şəbəkədəki məlumat axınlarını qarşılıqlı analiz etmək; - Şəbəkə elementlərində və qoşulmalarında kiber təhlükəsizlik qaydalarına riayət etmək; -İnnovativ təhlükəsizlik alətləri ilə işləmək və şəbəkədə tətbiqini icra etmək; - Kiber təhlükəsizlik alətləri ilə şəbəkənin davamlı nəzarətdə saxlanmasını və alətlərin	- Şəbəkələrin dizaynı, qurulması, idarə edilməsi və monitorinqinin həyata keçirilməsi istiqamətində plan və strategiyaların hazırlanması - Şəbəkə təhlükəsizliyinin təmin edilməsi və bu məqsədlə müxtılif təhlükəsizlik alətləri ilə işləmək metodologiyaları və strategiyalarının hazırlanması	**5**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**

	Artan kiber risklər fonunda şəbələnin davamlı təhlükəsizlik nəzarətində saxlamağı bacarır. İnformasiya və Kiber təhlükəsizlik strateji xəritəsində şəbəkə təhlükəsizliyinin yerini və rolunu ifadə edə bilir.		nəticələrinin doğruluğunu yoxlamaq ; - Şəbəkə avadanlıqları üzərindən müxtəlif qoşulmaların inzibatçılığını icra etmək; - Şəbəkə təhlükəsizliyinin biznes mühitindəki mövqeyini qiymətləndirmək və təqdim etmək;			
KS-İM-B02 Alqoritmlər və analitik düşünmə	Alqoritmik düşünmənin informatikada proqramlaşdırma öyrənməkdən asılı olmayaraq inkişaf etdirməyi bacarır. Müxtəlif növ optimallaşdırma problemlərində istifadə olunan sadə, intuitiv alqoritmlərlə bağlı bilir. Dinamik və Heuristik proqramlaşdırma alqoritmləri ilə bağlı olan problemlərin həll yolu mexanizmini bilir.	- Mürəkkəb problemlərin düzgün vizualiasiyası üçün alqoritmlərlə əlaqəli əsas anlayışları anlamaq; - Brute Force alqoritminin müxtəlif növlərini və plotting qraf nəzəriyyəsinin mahiyyətini anlamaq; - Parçala və birləşdir alqoritmi əsasında alqoritm dizayn paradiqmasını anlamaq; - Greedy yanaşmasının xüsusiyyətləri : lokal olaraq optimal seçim etmək üçün problemi həll etmə evristiyasına uyğun gəlməsi mexanizmini anlamaq; - Backtracking alqoritmi və Dinamik proqramlaşdırma arasındakı oxşarlıqları və fərqləri təyin etmək.	- Recurrence əlaqələri həll etməklə bağlı olan 3 varianti real nümunələr üzərində tətbiq etmək; - Heuristic və Approximate Algorithmlərin müxtəlif növləri ilə problem həll etmək.	Müxtəlif alqoritmlərin, eləcə də analitik düşünmənin kibertəhlükəsizliyin müxtəlif sahələrində tətbiq edilməsini təmin etmək məqsədilə plan, strategiya və metodologiyaların hazırlanması	**3**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**
KS-İM-B03 C proqramlaşdırma dili	Yüksək Səviyyəli Dillər Proqramlaşdırma Dizayn Metodologiyaları və onlarla bağlı olan sadə anlayışların işləmə prinsipini bilir.	- C dilində sadə proqramları müxtəlif növ operatorlardan istifadə etməklə yazmaq; - İf-else statement-i, Dövrlərin mahiyyətini və tam ədədləri üzən nöqtəyə çevirmək(əksinə) prinsipini anlamaq;	- Bir Ölçülü Matixlər, Funksiyalara Keçən Matrixlər, Çoxölçülü Matrixlər və Sətirlər üzərində işləmlər aparmaq; - Avtomatik və ya yerli, Qlobal, Statik Xarici dəyişənləri və	C proqramlaşdırma dilində əldə olunuş bilik və bacarıqların kibertəhlükəsizlik üzrə	**4**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**

	Matrix, Funksiya, Sətir, Göstərici və Strukturlarla bağlı bilir. Yaddaş bloklarının yenidən bölüşdürülməsi və Fayllarda giriş/çıxış əməliyyatları ilə bağlı metodları təmin və təyin edə bilir.	- Göstəricilərlə Bir Ölçülü Matrixlər arasındakı oxşarlıqları təyin etmək; - Strukturlar haqqında fundamental biliklərin anlaşılması və Funksiya prototipləri və keçid parametrləri haqqında təfəkkürə malik olmaq.	Makros anlayışını optimizasiya etmək; - Yaddaşın malloc ilə bölüşdürülməsi, calloc ilə ayrılması və I/O əməliyyatları zamanı səhvlərin idarə edilməsini hərtərəfli analiz etmək.	məsələlərdə və müxtəlif mühitlərdə tətbiqini təmin edən strategiya və metodologiyaların hazırlanması		
KS-İM-B04 İnformasiya Risklərinin İdarə olunması	Aktivlərin qorunması üçün alınan tədbirlərin iş dəyərləri ilə mütənasib olmasını təmin edilməsi prinsiplərini bilir. Risklərin təhlili ilə mümkün təsadüfən və ya qəsdən itkilərlə məşğul olmaq və minimuma endirmək üçün prosedurların hazırlanmasını və həyata keçirilməsini bacarır. Dinamik və Heuristik proqramlaşdırma alqoritmləri ilə bağlı olan problemlərin həll yolu mexanizmini bilir.	- Risklərin tipləri, Qabaqcıl standartlar üzrə Kiber Təhlükəsizlik Çərçivəsinin prinsiplərini anlamaq; - Təhdid və Təhlükə anlayışı, onların mənbələri, APT-lərə qarşı mübarizə üsulları ilə bağlı biliklərə sahib olmaq; - Risklərin İdarə edilməsi üçün plan ölçülərinin əhatə dairəsi və prosesdə rolların bölünməsi mexanizmini anlamaq; - Biznes təsir analizi prosesini(BİA) və Fəlakətin bərpası ilə biznes davamlılığı arasındakı fərqləri aydınlaşdırmaq.	- Əsas risk göstəriciləri(KRİ) təyin edilməsi və report hazırlanmağı ilə bağlı tələbləri optimizasiya etmək; - Risklərin yumşaldılması məqsədli həyata keçirilən təhlükəsizlik nəzarəti tipləri ilə real nümunələr üzərində işləmək; - Səciyyəvi və bəsit risk qeydiyyata alınması prosesini həyata keçirmək.	Risklərin müəyyən lunması, qiymətləndirilməsi,analizi və aradan qaldırılması, eləcə də kibertəhlükəsizlik standardları və çərçivəsi əsasında risklərin idarə olunması planının və informasiya təhlükəsizliyi strukturunun yaradılmasına yönələn plan, strategiya və metodologiyaların hazırlanması	**3**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**
KS-İM-B10 Bulud təhlükəsizl	Cari standartlara, protokollara və ən yaxşı təcrübələrə əsaslanan bulud	- Bütün təbəqələrdə hərtərəfli məlumat qorunması, uçtan uca şəxsiyyət və giriş idarəçiliyi, monitorinq və audit prosesləri və	- Hesablama nümunəsini/virtual maşını CSP mühitlərində etibarlı şəkildə yerləşdirmək;	Buludda saxlanılmış məlumatların qorunması,	**3**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4**

ik əməliyyatlarının idarə olunması	hesablama memarlığının əsasları ilə bağlı ilkin məlumatları bilir. Müxtəlif bulud xidmətlərində müəssisə məlumatlarını necə düzgün müəyyənləşdirmək və təsnif etməklə əlaqədar anlayışları bilir. Bulud təhlükəsizliyinin qiymətləndirilməsi və audit hesabatları aparmağı bacarır.	sənaye və tənzimləmə mandatlarına uyğunluq prinsiplərini anlamaq; - Bulud əsaslı infrastrukturlar üçün sənaye təhlükəsizlik standartlarını, audit siyasətləri ilə bağlı olan biliklərə sahib olmaq.	- Təhlükəsizlik konfiqurasiyalarını və əməliyyatları avtomatlaşdırmaq üçün İnfrastrukturu Kod (IaC) istifadə etmək; - Məlumatları mövcud olduğu yerdə və şəbəkələri keçərkən şifrələmə metodlarını aydınlaşdırmaq; - Şəbəkə nəzarət vasitəsi ilə bulud məlumatlarının axını necə idarə edəcəyini optimizasiya etmək; - Təhlükəsizlik çatışmazlıqlarının aşkarlanmasını avtomatlaşdırmaq üçün bulud vendoru tərəfindən təmin edilən IAM analiz vasitələrindən istifadə etmək;	eləcə də bulud əməliyyatlarının idarə olunmasının təhlükəsizliyini təmin etmək məqsədilə əldə olunan bilik və bacarıqların tətbiq edilməsini təmin edən plan, strategiya və metodologiyaların hazırlanması		**PK – 5** **PK – 6** **PK – 7**
KS-İM-B09 Dark Web, Anonimlik və İOT-ların mühafizəsinin təşkili	TOR brauzer, TAİLS sistemi və VPN istifadə etməklə anonimliyin təmin edilməsi prinsiplərini bilir. Anonimliyin saxlanılmasını əsas tutaraq müxtəlif texnikalardan istifadə etməklə anonim onlayn kimliyin yaradılmasını və ünsiyyətə keçməyi bacarır. Müxtəlif şifrləmə mexanizmləri və	- VPN-in işləmə prinsipini anlamaq; - TAİLS haqqında ümumi biliklərə sahib olmaq; - XMPP / Jabber haqqında ümumi biliklər, anonim XMPP hesabının yaradılması və TAILS üzərindəki Pidgin istifadə edərək ona necə daxil olunmağı ilə bağlı anlayışlara sahib olmaq; - Kripto Valyutaların işləmə prinsipini anlamaq.	TOR brauzerin müxtəlif əməliyyat sistemlərində qurulmasını həyata keçirmək; - TAİLS-dən VPN-ə qoşulmaqla bağlı 2 əsas metodu laboratoriya mühitində yerinə yetirmək; - Saxta anonim kimlik yaratmağı, Müvəqqəti E -poçt Hesablarından, Gizlilik Fokuslu E -poçt Təchizatçılarından və DarkNet E -poçt Provayderlərindən istifadə etmək; - Anonimliyin saxlanılması məqsədilə metadatanı	İoT cihazlarının təhlükəsizliyi, müxtəlif əməliyyatlar apararkən anonimliyin qorunması və kriptovalyutalardan istifadə zamanı təhlükəsizliyin təmin edilməsi məqsədilə plan, strategiya və metodologiyaların hazırlanması	**4**	**PK – 1** **PK – 2** **PK – 3** **PK – 4** **PK – 5** **PK – 6** **PK – 7**

	Kripto Valyutalar ilə əməliyyatlar aparmağın yollarını bilir.		təmizləmək və faylları TOR brauzer vasitəsilə paylaşmaq; - Simmetrik və assimmetrik şifrləmə mexanizmini, PGP açar cütlüyünü yaratmağı, verilmiş mətni şifr /deşifr etməyi və elektron imza vasitəsilə imza çəkilməyi real nümunələr üzərində işləmək; - Bitcoin Wallet yaratmaq.			
